***Abbasova Elmira İdris qızı***
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu*
*"İlk Orta əsrlər şöbəsi"nin elmi işçisi*

# ZOOMORF VƏ ANTROPOMORF TƏSVİRLİ QABLAR VƏ FİQURLAR (ARXEOLOJİ VƏ MUZEY MATERİALLARI ƏSASINDA)

**Açar sözlər:** Arxeologiya, zoomorf, antropomorf, fiqurlar, gil qab

**Ключевые слова:** Археология, зооморф, антропоморф, фигуры, глиняная посуда

**Key wards**: Archeology, zoomorph, anthropomorph, figures, pottery

Arxeoloji qazıntılar zamanı aşkar edilən maddi-mədəniyyət qalıqlarının mühüm bir qismi də zoomorf və antropomorf təsvirli qablar və fiqurlardır. Bu qab nümunələri tarixin müxtəlif dövrlərində yaşamış yerli əhalinin özünəməxsus dini görüşlərini, inanclarını, mənəvi həyatını və zaman keçdikcə formalaşan estetik baxışlarını, onları hazırlayan insanların dünyagörüşlərini təzahür etməklə yanaşı, aid olduğu dövrün və ərazinin faunası haqqında da məlumat verən dəyərli mənbədir. Bu mənada hesab edirik ki, bu cür təsvirlər qablar üzərində bədxah və zərərverici ruhların insanların məişətinə daxil olmasının qarşısını almaq məqsədilə əks etdirilmişdir. Başqa sözlə desək, zoomorf təsvirli qablar bir növ evin, ailənin, təssərüfatın qoruyucusu, mühavizəçi funksiyasını yerinə yetirmişdir.

Yaranma tarixi çox qədim olan belə qabların hazırlanması sonrakı yüzilliklərdə də geniş olmuşdur [1]. Onlara Mingəçevirdə [8, 14. s. 49-54; 103-140], Qaratəpədə [15, s. 1181-1184], Şamaxıda [10, s.85-95], Qəbələ [5, 261-266], Kürdəmir [4. 107-108], Şirvan [12.82-84; 358-361], Salyan [6.20] və son illər Ağsu [3.233-244] rayonu ərazisində aparılan arxeoloji qazıntılar zamanı rast gəlinmişdir.

Apardığımız müşahidələrə əsaslanaraq zoomorf mənşəli təsvirlərin daha çox kasa və boşqab tipli qabların daxilində işləndiyinin şahidi oluruq (Tablo I, şəkil 4). Onları şərti olaraq ev, çöl, vəhşi heyvanı və quşları olaraq qruplaşdırmıq olar. Məsələn, tədqiq etdiyimiz kasa tipli şirli qab nümunəsinin daxilində hərəkətdə olan ceyran rəsmi çəkilmişdir. Rəsm qoşa dairə içərisində zambaq gülü əhatəsində işlənmişdir. Şirvan şəhərinin orta əsr yaşayış yerində arxeoloji tədqiqatlar nəticəsində aşkar olunan qabın gili çəhrayı rəngdə və tərkibi təmizdir. Qabın üzərinə anqob çəkildikdən sonra tünd qəhvəyi rəngdən istifadə edilmişdir. XIII–XIV əsrlərə aid olan qabın qalan hissədə ölçüsü 5 x 4 sm-dir.

Bəndovan yaşayış yerindən aşkar olunan şirli qabların daxilinə çəkilmiş təsvirlər isə əsasən at və şir rəsmlərindən ibarətdir. Anqob üzərindən çəkilmiş rəsmlər ağ, yaşıl, sarı və tünd qəhvəyi rənglərdən istifadə edilərək qoşa dairə içərisində işlənmişdir. Rəsmin kompazisiyasında qaçan şirin ovuna hücum etməsi aydın nəzərə çarpır.

Bəndovan və Qırxçıraq materialları içərisində müxtəlif ev quşlarının təsvirləri olan şirli qablar da çoxluq təşkil edir. Onlar qara rənglə çəkilmiş qoşa dairə içərisində yerləşdirilmiş toyuq, qaz və xoruz rəsmilərindən ibarətdir. Quşların qanadları ağ və yaşıl, sinə və boğazları isə açıq və tünd qəhvəyi rənglərlə işlənmişdir.

Əvvəlkilərindən fərqli olaraq, bir qədər yayğın çəkilmiş digər zoomorf təsvirlərdən biri nəhəng və hərəkətdə olan heyvandır. Açıq və tünd qəhvəyi rənglərlə çəkilmiş bu heyvanın başı sol yanı istiqamətində əyilmiş vəziyyətdədir.

Anoloji qablar Şəhərgah (Kürdəmir) orta əsr yaşayış yerindən aşkar olunmuşdur və tünd qəhvəyi rənglərlə işlənmiş iri haça buynuzlu dağ keçisi və maral təsvirlərindən ibarətdir. Dağ keçisi hərəkətdə, maral isa oturuşmuş vəziyyətdədir. XII-XIII əsrlərə aid olan bu nəfis qab nümunələrinin gili çəhrayı, tərkibləri məsaməsizdir.

Badya tipli şirsiz saxsı qabın çiyin hissəsində qoç buynuzlu heyvan təsviri vardır.

Təsvir yapma üsulu ilə yerinə yetirilmişdir. Şirvan Tarix-Diyarşünaslıq muzeyində saxlanan və XIV əsrə aid bu qab nümunəsi nazik divarlı, yastı oturacaqlı olub (oturacağının diametri 5 sm), gili çəhrayı və təmizdir.

III-VIII əsrlərə aid Torpaqqala abidəsindən (Ağsu r-nu, Bəyimli k.) məlum olan bir qab nümunəsinin bir hissəsi qara rəngdə olan öküz başından ibarətdir. Onun alnına yaxın hissəsində olan buynuzlarının hər ikisi yarıdan qırılmış, ağzının kənarından alnına doğru cızma üsulu ilə xətlər çəkilmişdir. İkincisi isə açıq çəhrayı rəngdə, 12 sm ölçülü simvolik buynuzdur. Buynuz ehtimal ki, qabın qapağının üstündə formalaşdırılıb. Sümükdən hazırlanmış bu zoomorf fiqurun uzunluğu 5.5, eni 2 sm-dir. Fil sümüyündən olan nümunənin üzəri oxra maddəsi ilə şirlənmişdir. Onun alnı, gözləri və tac formasında başı vardır. Gözləri və bədəni cızma üsulu ilə işlənmişdir. Təsvirin bayquşa aid olduğu ehtimal edilir. Mifoloji ədəbiyyatdan uzaq keçmişdə bayquşun var-dövlət, ocağın qoruyucusu olduğu məlumdur. Bu baxımdan ehtimal etmək olar ki, kiçik bayquş fiquru qədim azərbaycanlıların da məişətində eyni funksiyanı yerinə yetirmişdir.

Gil fiqurlar içərisində Hacıqabul rayonu Tarix Diyarşünaslıq Muzeyinin eksponatları içərisində yer tutan at, qoyun, keçi, xallı bəbir və ördək fiqurları mühüm yer tutur. Ördək fiquru nəfəsli alət formasındadır. Onlar yastı olub, kiçik quyruğu və belində kiçik dairəvi oyuğu var. Digər fiqurlar isə ev heyvanlarına aid olanlardır və onların hamısı ayaq üstə, bəzilərinin başı, bəzilərininsə quyruğu kəsilmiş vaziyyətdədir (Tablo 2).

Görünür, totemizm inamının insanların həyatında hakim rol oynadığı ibtidai çağlarda istər qabların üzərində olan heyvan təsvirləri, istərsə də fiqurlarının özləri bir növ məhsulun qoruyucusu və bərəkətli olmasını təmin etmişdir. Lakin bəzi tədqiqatçılar saxsı məmulatını təsnif edərkən bu fiqurları uşaq oyuncaqları sırasına aid edirlər (Tablo 2).

Antropomorf təsvirli qablardan biri daxilində sxematik təsviri olan dayaz şirli kasadır. Ağ anqobla örtülmüş qabın dekor bəzədilməsində yaşıl, şabalıdı, sarı rənglərdən istifadə edilmişdir. Təsvirin geyimləri sarı, yaşıl, qolunun kənarları şabalıdı, belindəki qurşaq isə ağ, saqqalı və qaşı tünd şabalıdı fonda verilmişdir. Antromorf təsvir gözətçi və ya döyüşçü təsviri olan kişidir. Onu başında iri papaq, sağ əlində uzuntutacaqlı təbərzin, sol əlində isə həyatı və yaşayışı bildirən həyat ağacından bir budaq və üç nöqtə verilmişdir. Şabalıdı rənglə verilən üç nöqtə qabın içərisində, təsvirin ətrafında və onun enli ağzının kənarında da işlənmişdir. Bu üç nöqtə həyatı və inkişafı özündə birləşdirən – ata, ana və nəslin davamçısı olan uşağa işarədir. Belə təsvirlər zərdüştüklə xristianlığı özündə birləşdirən mini-portretidir ki, onlar da əsasən rəssamlıq sahəsində III-V əsrlərdə geniş yayılmışdır. Eyni zamanda belə geyim təsvirləri miniatür rəsm əsərlərində də öz əksini tapır [13. 220-221].

Nazik divarlı qabın diametri 6.5 sm, hündürlüyü 5sm, ağız hissəsinin diametri 21 sm, divarının qalınlığı 2 sm-dir. XII əsrə aid olan antropomorf təsvirli qab nümunəsi Qəbələ Qala orta əsr yaşayış yerindən arxeoloji qazıntı işləri zamanı aşkar edilmişdir [4.107-108] (Tablo I, şəkil 3).

Antropomorf təsvirli şirli qab nümunələri XVIII əsr Ağsu yaşayış yerində aparılan arxeoloji qazıntılarından da məlumdur. IV qazıntı sahəsində aşkar olunan kasa və boşqab tipli qablardan, habelə onların müxtəlif fraqmentlərindən ibarətdir. Nümunələrdən biri fayans tipli qabın oturacağıdır. Qabın hər iki tərəfi ağ fonda kobalt rənglə nəbati təsvirlərlə bəzədilmişdir. Qabın daxilində - dib hissədə konsentrik dairə içərisində miniatür təsvir işlənib. Təsvirin mərkəzində bədənli, yaşlı qadın rəsmi verilmişdir. Onun sağ əlində güzgü, arxa fonda hasar içərisində müxtəlif çiçəkli bağça, qadının hər iki çiyninə yaxın yerdə nar, başı üstündə isə çətir təsviri görünür. Kompozisiyanın ətrafı da xəzan yarpaqlarla çərçivəyə salınıb. Qabın daxili səthində olan təsvirə görə kompozisiyanı "Qızıl payız" adlandırmaq olar [1.244-246]. Onun oturacağının diametri 7 sm, divarının qalınlığı 4.5 mm-dir.

Digərinin ölçüsü 20 x 20 sm olan kvadrat formalı kaşı nümunəsidir. Onun üzərində

olan təsvirlər də olduqca maraqlıdır. Kompozisiyada milli geyimli Azərbaycan qadını və onun sol tərəfində əyləşən kişi əks olunmuşdur. Bu miniatür əsərdə varlı ev xanımının süfrəsi və süfrədə olan bol nemət, habelə süfrəyə düzülmüş müxtəlif çeşidli qab dəstləri təsvir edilmişdir. Süfrə evin qarşısındakı çəmənlikdə açılmış və zəngin bəzədilmişdir. Qadın əlində olan hündür oturacaqlı, şar gövdəli, uzun darboğazlı qabdan kişinin qədəhinə içki süzür. Süfrəyə düzülmüş digər qədəhlər, müxtəlif şüşə qablar import qablarla eyniyyət təşkil edirlər. Süfrənin zənginliyi və açılmış süfrənin qarşısında güllü – çiçəkli bağçada qaçışan zoomorf rəsmlər (dovşan və pişik) əsəri daha da canlandırır. Kaşı üzərində olan miniatür təsvir ağ-qara çərçivə içərisində sarı, göy, çəhrayı və yaşıl rənglərlə işlənmiş yüksək sənət əsəridir [3.186-194] (Tablo I, şək 1, 2).

***Antropomorf fiqurlar.*** Arxeoloji abidələrdən aşkar edilmiş nümunələr içərisində gildən hazırlanmış müxətəlif ölçülü qadın fiqurları da çoxluq təşkil edir. Qadın fiqurları qırmızı və bozumtul gildən olub, keyfiyyətli bişirilmişdir. Onların başı, ayaqları və qolları sınmış haldadır. Məsələn, məmulatın birinin bədəni iri və canlı, beli incə, yan hissəsi və çiyni qabarıq, sinəsi hamar, döşləri isə şişkin təsvir edilmişdir (Tablo 2). Baş hissəsi sxematik formada çalmalı olub, dirsəkdən döşlərə tərəf hamardır.

Fiqurlardan digərinin sinəsində və belində yapma kəmər, beş ədəd saçaq, qarın hissəsində isə bir-birindən təxminən 4-5 sm. aralı yapma belbağı işlənmişdir. Bunların arasında balıq rəsmi yerləşdirilmişdir. Ehtimallara görə, bu fiqur bir tərəfdən ibtidai təsərrüfat forması olan balıqçılıqla əlaqədardırsa, digər tərəfdən də bir çox dünya xalqlarında [16. 468-471] olduğu kimi, qədim azərbaycanlılarda da qadının bolluq, artım və nəsilyaratma vasitəsi sayıldığını özündə ehtiva edir.

Qadın fiqurunun birinin başının yerində sxematik baş, çiyinlərindən üzünə və sinəsinə doğru dörd hörük (hörüklərdən biri uc hissədə düyünlənmişdir), arxa tərəfdən isə iki hörük nəzərə çarpır.

Digər qadın fiqurları isə təsvirini verdiyimiz fiqurlardan bəzək, forma və ölçülərinə görə fərqlənir. Onlardan üçünün baş və boğaz hissələri salamatdır. Yastı başlı, enli ağızlı və uzun boğaza malik olan bu fiqurların boğazını beş sıra yapma kobud boyunbağı spiralvari bəzəyir. Burnunun sol tərəfində qoyulan kiçik nöqtə gözü ifadə edir, Sağ gözün üstü cızma xətlərlə işlənmiş xırda rəmzi tüklərlə örtülüdür və qulaqlar yastı formalıdır.

Fiqurlardan birinin ağzı açıqdır və ağ dişləri aydın nəzər çarpır. Onun dik burnu və bir-birinə simmetrik olmayan kiçik gözləri var. Sol tərəfdən sifətinə doğru sallanan birçək qulağının üstünü örtür, arxa tərəfdə olan hörük isə boynuna qədər uzanır. Boğazını gildən üç sıra muncuq düzülmüş sallama boyunbağı bəzəyir.

Sonuncu qadın fiquru əvvəlkilərdən nisbətən kiçik olub bir-birindən 1 sm. aralı olub, beş sıra nazik boyunbağısı vardır. Fiqur qartal dimdiyini xatırladan buruna və əvvəlkilərdən fərqli olaraq alnının ortasında iri oyuğa (gözə) malik olması ilə fərqlənir.

Onu da xatırladaq ki, İslamaqədərki dövrü əhatə edən və gildən hazırlanan qadın fiqurları bütün Azərbaycan ərazisində geniş yayılmışdır. Belə fiqurların kütləvi şəkildə hazırlanması bir tərəfdən qadının - ananın cəmiyyətdə və ailədə tutduğu aparıcı mövqeyi ilə bağlı olmuşdursa, onların qəbirlərdən aşkar edilməsi isə çox güman ki, ibtidai insanların esxotoloji təsəvvürləri (ölümdən sonrakı həyat) ilə bağlıdır. Yəni insan öldükdən sonra da yaşamaqda davam edir və buna görə də, bu inanclara görə, tayfa və ya qəbilə başçısı olan kişi ölərkən, bütün digər əmək və təsərrüfat vasitələri ilə bərabər, onun qadınını da yanında dəfn edirdilər.

Digər tərəfdən, qadın fiqurlarının kütləvi halda hazırlanmasının qurbankəsmə ayini ilə də bağlılığı istisna olunmur. Dinlərin bir-birini sıxışdırıb aradan çıxarması (əvvəl xristianlıq, sonra isə islam dininin) gil bütlərə və heykəllərə etiqadı azaltmaya bilməzdi. Bununla bağlı olaraq cansız bütlər və gil qadın heykəlləri canlı həyat səhnəsindən sıxışdırılaraq çıxarılmış və torpaqda basdırılmışdır [11. 80].

Onu da qeyd edək ki, tədqiq etdiyimiz zoomorf və antropomorf təsvirli qablar və fiqurlar ilk orta əsrlərə və orta əsrlərə aid olub sənətkarlıq baxımından yüksək səviyyədə hazırlanmışdir. Onlar Azərbaycanda qədim insanların dini inancları ilə bağlı geniş təsəvvür yaratmaqla yanaşı, bədii sənət nümunəsi, incəsənət əsərləri olmaq etibarilə də olduqca dəyərlidir.

## ƏDƏBİYYAT

1. Abbasova E.İ. Orta əsrlərdə Azəbaycanda süfrə mədəniyyəti (Ağsu materialları əsasında). IV Beynəlxalq Avrasiya Arxeologiyası Konfransı. Bakı, 2012, 1-5 oktyabr, səh.244-246.
2. Abbasova F.Ə. Azərbaycanın orta əsr zoomorf əşyalaı. Bakı: Elm, 2004, 280 s.
3. Azərbaycanda arxeoloji tədqiqatlar -2010. Bakı, 2011, s. 186-194; 233-244.
4. Azərbaycanda arxeoloji tədqiqatlar. Bakı, 2008, s. 107-108.
5. Azərbaycanda arxeoloji tədqiqatlar-2009. Bakı -2010, s. 261-266.
6. Məmmədov A.M. Salyan // Dəmir dövründən – orta əslərədək. Tarixi – arxeoloji icmal. Bakı-Elm-2011, 61 s.
7. Ələkbərov A.İ. Cənub – Şərqi Azərbaycanda “Qoyun ayini ilə bağlı maddi-mədəniyyət abidələri haqqında”. Azərbaycan SSREA-nın xəbərləri. Tarix, fəlsəfə, hüquq, 1994, №1-4.
8. Qolubkina T.İ. Mingəçevir küp qəbirlərindəki ayin qabları. “Qobustan” jurnalı, 1987, №2.
9. Vahidov R.M. Mingəçevir III-VIII əsrlərdə. Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı. Bakı, 1961.
10. Osmanov F.L. Qafqaz Albaniyasının maddi mədəniyyəti.e.ə. IV, b.e III əsrləri. Bakı, «Elm», 1982.
11. QuraniKərim. Əl-Ənam (Davar) surəsi, ayə-5,6,19,22.
12. Novruzlu Ə.İ., QAəhrəmanova S.M., Vəliyeva G.Ə. Qədim və müasir Əlibayramlı şəhəri. Bakı, 2004
13. Миниатюры к “Хамсе” Низами. Узбекской фото Фархад и Ширин. Узбекской ССР Ташкент, 1985, по. Редак. Фазила Сулейманова.
14. Голубкина Т.И. О зооморфной керамика из Мингечаура. Материалъна културa Азербайджана. Баку, 1951, вып.2.
15. ИсмизадеО. .Ш. Зооморфные глинъесосуды найденные в Гаратепе. Баку. Док. Азерб. ССР, т. , 1959, №2.
16. Мифы народов Мира. Москва, изд-во, «Советская энцклопедии», 1982, том.2.

***Аббасова Эльмира Идрис гызы***

## ЗООМОРФНЫЕ И АНТРОПОФОРНЫЕ ИЗОБРАЖЕНИЯ НА СОСУДАХ И ФИГУРАХ
### (на основе археологических и музейных материалов)

### *РЕЗЮМЕ*

Статья посвящена одной из актуальных проблем археологии Азербайджана – семантика изображений на зооморфных и антропоморфных изделиях, их роли в быте и культуре населения последуемого периода. Этим археологические материалы вызывают большой интерес и с этнографической точки зрения.

К написанию статьи привлечены образцы из археологических материалов раскопок, проведённых в различных зонах на месте бывшего населённого пункта Бендован и Гырх-çıraq (Сальянского района), на городище Шехерках (Кюрдамирского района), Торпаггала (сел. Беймили Агсуинского района), на материалах краеведческого музея Гаджигабульского района на других выявленных во время археологических раскопок, образцов материальной культуры.

Сосуды и фигуры с зооморфным и антропоморфным изображениями наряду с высоким мастерством ремесла с точки зрения декоративно-прикладного искусства весьма значимы. Этим изделия свидетельствуют о высоком уровне древнего ремесла Азербайджана.

***Abbasova Elmira Idris gizi***

**THE ZOOMORPHIC AND ANTHROPOMORPHIC VESSELS AND FIGURES (BASED ON THE ARCHAEOLOGICAL AND MUSEUM MATERIALS)**

***SUMMARY***

The article is devoted to one of the urgent problems of the Azerbaijan archeology, the semantics of the zoomorphic and anthropomorphic products,on their role in the life and culture of the people. These archaeological materials are also of great interest from the ethnographic viewpoint.The artifacts revealed during the archaeological excavations in various regions of Azerbaijan (Bandowan and Qirkhchiraq residential sites, Shahargah (Kurdamir), Torpaqqala (Beyimli village of Aghsu district), the Museum of History and Regional Ethnography in Hajigabul district was drawn to the investigation.

Vessels and figures with zoomorphic and anthropomorphic images along with high craft skillsare very valuable in terms of being the samplesof art and craft. And this shows the high level of the ancient craftsmanship in Azerbaijan.

## Tablo I



**Şəkil 1**
Kaşı üzərində insan və təbiət təsviri –
Xaraba şəhər(Ağsu r-nu)




**Şəkil 2**
Zoomorf təsvirli şirli qab –Xaraba şəhər
(Ağsu r-nu)



**Şəkil 3**
Antopomorf təsvirli şirli qab –Qala (Qəbələ)




**Şəkil 4**
Vəhşi heyvan təsvirli qab nümunəsi –Qəbələ Qala

**Tablo II**



Gil antropomorf və zoomorf fiqurlar –Tarix diyarşünaslıq muzeyi (Hacıqabul r-nu)